У 2018 році виконання НДР в Україні практично рівнозначно фінансувалося державним сектором і підприємницьким сектором. Проте вже у 2019-2020 рр. «левова частка» обсягу фінансування НДР приходилася саме на підприємницький сектор.

**Література**:

1. Наукова та інноваційна діяльність України – 2020: статистичний збірник. URL: http://www.ukrstat.gov.ua/druk/publicat/kat_u/2021/zb/10/zb_Nauka_2020.pdf

## İNNOVATIV SAHIBKARLIĞIN IQTISADI INKIŞAFDA ROLU

*Abbasova-Zeynalova Nuranə Nazim qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

İnnovativ sahibkarlıq yeni kapital qoyuluşu sahələrinin tapılmasına, yeni məhsulların və istehsal sahələrinin yaradılmasına və təkmiləşdirilməsinə, öz üstünlüklərini inkişaf etdirməyə və qazanc əldə etmək üçün müxtəlif fürsətlərdən səmərəli istifadə etməyə yönəlmiş yaradıcı fəaliyyət növüdür.

İnnovativ sahibkarlıq və ya innovasiya sahibkarlığı bazar üçün yeni bir məhsul istehsalı, fəaliyyət profilindəki dəyişiklik və ya yeni bir müəssisənin və ya sahənin təməlidir. Bəzi müəssisələr böyüməni bərpa etmək, qlobal iqtisadi və maliyyə böhranını aradan qaldırmaq üçün səyləri birləşdirdikləri bir dövrdə iqtisadi artıma, iş yerlərinin açılmasına və yoxsulluğun azaldılmasına töhfə verməkdə mühüm rol oynaya biləcəyi baxımından xüsusi diqqət innovasiya sahibkarlığına yönəldilmişdir. Sahibkarlığın və yeniliyin bir-biri ilə qarşılıqlı əlaqədə olması və yeniliyin sahibkarlıqda bir vasitə kimi görülməsi geniş qəbul edilmiş bir həqiqətdir.

İnnovasiya və yenilik anlayışları əməli fəaliyyətdə innovativ təfəkkürə malik sahibkar üçün dəyərə çevirilir  və nəticədə iqtisadi gəlir gətirir. İnnovasiya sahibkarlığı tamamilə yeniliyə əsaslanır, bu səbəbdən belə fəaliyyətlərin nəticəsi ya yeni məhsul və ya xidmət istehsal etmək, ya da tamamilə yeni xüsusiyyətlərə malik bir məhsul və texnologiyalardır.

Bir qayda olaraq, sahibkarlıq fəaliyyətinin hər hansı formada həyata keçirilməsi praktikası innovasiyanı əhatə edir. Buna misal olaraq istehsalın idarə olunması üçün yeni bir təşkilatların istifadəsini, məhsulun keyfiyyəti və ya istehsalın təşkili üçün yeni texnologiyaların təşkilinin tətbiqini göstərmək olar. Ənənəvi məhsulların istehsalı və ya bazara tədarükü  həm istehsalın özünü, həm də istehsal olunan malların keyfiyyət xüsusiyyətlərini dəyişdirmək və ya qismən innovasiya tətbiq etməklə həyata keçirilə bilər.

Sahibkarlığın innovativ inkişafı istehlakçıların yeniliyə olan tələbindən, milli iqtisadiyyatın inkişaf etmiş elmi və texnoloji potensialının mövcudluğundan, riskli innovasiya fəaliyyətini maliyyələşdirən vençur şirkətlərin və investorların fəaliyyətindən asılıdır.İstehsala innovasiyanı tətbiq etməyi zəruri edən bir neçə amillər var. Məsələn, bazarda yeni rəqiblərin meydana çıxması, rəqiblərin öz istehsalını təkmilləşdirməsi, rəqiblərin önə keçməsi, məhsula olan marağın azalması,

istehsalın genişləndirilməsi, yenidənqurma, yeni məhsulun mənimsənilməsi və buraxılışı, istehsal olunan məhsulların yeni çeşid və modellərinin hazırlanması və s. [1].

İnnovasiya prosesi hər şeydən əvvəl yeni məhsulların mənimsənilməsi, buraxılan məhsulun modernləşdirilməsi, yeni istehsal vasitələrinin istehsal prosesinə cəlb edilməsi, yeni texnologiya və məhsulun istehsalı üsullarından istifadə edilməsindən ibarətdir. İnnovasiya prosesinin əsas mərhələləri daxil olmuş ideyaların sistemləşdirilməsi, yeni məhsul ideyalarının hazırlanması, eyni məhsulun iqtisadi səmərəliliyinin təhlili, marketinq proqramının hazırlanması, yeni məhsulların hazırlanması, bazarda testləşdirmə aparılması, istehsalatda yeni məhsulun tətbiqi barədə qərar qəbul edilməsi və s. ibarətdir. İnnovasiyanın nəticələrinə gəldikdə isə bu prosesdə adətən məhsulun çeşidi təzələnir, rəqabət qabiliyyəti yüksəlir, əhalinin tələbatının ödənilməsi təmin edilir, istehsalın səmərəliliyi yüksəlir, məhdud resurslardan qənaətlə istifadə olunur, istehsal xərcləri azaldılması mənfəətin artmasına gətirib çıxarır.

İnnovasiyanı həyata keçirmək iri həcmdə istehsal, işçi qüvvəsi və təşkilati-sosial xərclər çəkmədən mümkün deyil. İnnovasiya həm də eksperimentlərlə bağlıdır. Mütamadi olaraq tətqiqatlar, təcrübələr, praktikalar, planlar tələb edir. Ona görə də innovasiya sahibkarlığını istehsala tətbiq etmək elə də asan məsələ deyil. Bu çətinliyi aradan qaldırmaq yollarından biri lizinq müqavilələrinın bağlanmasıdır. Bu müqaviləyə uyğun olaraq, lizinq şirkəti sifariş olunan maşın, avadanlıq və s. malı istehsalçıdan alır və sifarişçiyə icarəyə verir. İnnovasiya prosesinin son məqsədi yeni məhsulun kommersiya qabiliyyətinin yüksəldilməsi və kütləvi istehsalının təşkilidir. Buna görə də fəaliyyətində uğur qazanmaq istəyən hər bir sahibkar istehsala innovasiyanı tətbiq etməlidir.

Ümumiyyətlə, innovasiya sahibkarlığı, yeniliklərdən praktik istifadə yolu ilə ən yaxşı xüsusiyyətlərə malik malların (məhsulların, xidmətlərin) və texnologiyaların yaradılmasına gətirib çıxaran iqtisadi bir proses olaraq təyin edilə bilər. İnnovasiya sahibkarlığı yeni bir məhsul yaratmağın xüsusi bir yenilikçi prosesi, davamlı yeni imkanlar axtarmağa, bir sözlə, yeniliyə istiqamətlənməyə əsaslanan bir idarəetmə prosesidir. Bu, sahibkarın yeni bir layihə həyata keçirmək və ya mövcud bir layihəni yaxşılaşdırmaq riskini öz üzərinə götürmək istəyi ilə nəticələnən maddi, mənəvi və sosial məsuliyyətlə xarakterizə olunur.

Xarici ədəbiyyatlarda innovasiya sahibkarlığının iş yerlərinin açılmasına təsiri ilə yanaşı yeniliklərin, iqtisadi inkişafın və rifahın inkişaf etdirilməsində nəzərə çarpan rolu olduğu qeyd edilmişdir. Son dövrdə iqtisadi inkişafın yüksəldilməsində innovativ sahibkarların roluna getdikcə daha çox əhəmiyyət verilməyə başlandı. İnnovativ sahibkarlar yeni fikirləri yüksək tələbatlı satıla bilən məhsullara, xidmətlərə və ya texnologiyalara çevirməyi bacaran sahibkarlar sayılır və bu səbəbdən yeniliklər onlar üçün yeni gəlir əldə etməkdə bir vasitə olaraq xüsusi bir rol oynayır. İnnovasiyaya əsaslanan sahibkarların dünyanın hər yerindəki iqtisadiyyatın çiçəklənməsində və yüksəlməsində əhəmiyyətli rol oynaması mübahisəsizdir.

**Ədəbiyyat:**

1. Tağıyev A.H., Aslanzadə İ.A. İnnovasiya menecmenti. Dərs vəsaiti. I-II

hissə.Bakı, 2017.
2. Tağıyev A.H., Səfərov Q.Ə.. İnnovasiya layihələrinin menecmenti. Bakı, 2013.
3. Tağıyev A.H. İnnovasiya. Bakı, 2018.
4. Tağıyev A.H., Əmirov İ.B.. İnnovasiya menecmenti. Bakı, 2010.
5. Qasımov F.H., Nəcəfov Z.M.. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, 2009.
6. Qasımov İ., Cəbiyev F.. İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı, 2017.
7. Niftullayev V.. Sahibkarlığın əsasları. Bakı, 2002.
8. Texnoparklar: Kiçik sahibkarlar üçün bələdçi. Bakı, 2015.

## İNNOVATİV SAHİBKARLIĞIN İQTİSADİYYATIN İNKİŞAFINDA ROLU

*Kərimli Günel Fazil qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Etimologiyası fransız və alman dillərinə əsaslanan "sahibkarlıq" sözünün mənası "öhdəyə götürmək" deməkdir. Bu mürəkkəb fenomen üçün müxtəlif təriflər verilmişdir. Riçard Kentillon sahibkarları gələcəkdə gəlir götürmək məqsədilə risk etməyə hazır olan şəxslər kimi təyin edərək, sahibkarları risk edən, Jan-Batist Se isə sahibkarları iqtisadi inkişaf üçün aparıcı faktor hesab edərək, iqtisadi resursları daha daha yüksək məhsuldarlığa malik sahələrə yönləndirən, müxtəlif istehsal faktorlarını informasiya və təcrübə ilə birləşdirərək istehsal prosesini təşkil edən şəxslər adlandırmışlar. Cozef Şumpeter sahibkarlara innovator və dəyişiklik yaradan şəxslər kimi tərif vermişdir. Sahibkar lider və menecerdir. Çünki zaman keçdikcə müəssisələr inkişaf edir və inkişafın müəyyən mərhələsində sahibkar liderə və menecerə çevrilir. Bu səbəbdən də sahibkarlar idarəetmə sahəsində yüksək bilik və bacarıqlara malik olmalıdır. Sahibkarlar yüksək nailiyyət qazanmaq ehityacı olan, üstün olmaq motivasiyası olan, özünə daim güclü inamı olan, nikbin, innovativ, yaradıcı, təxəyyüllü, həyəcanlı və profilaktik insanlardır.

Sahibkarlıq fəaliyyətinin müxtəlif meyarlar baxımından müxtəlif formaları vardır ki, bu formalara aşağıdakılar aiddir:

1. Mülkiyyət məsuliyyətinə görə - fərdi, kollektiv, dövlət sahibkarlığı;
2. Fəaliyyətin fiziki və dəyər göstəricilərinin həcminə görə - mikro, kiçik, orta, iri sahibkarlıq;
3. Fəaliyyət növlərinə görə - istehsal, kommersiya, maliyyə, konsultativ, vasitəçilik sahibkarlığı;
4. Elmi-texniki tərəqqi nailiyyətlərini özündə əks etdirməsinə görə - klassik və innovasiya sahibkarlığı.

Sahibkar - innovativ baxışı olan və onu bazara çıxarma qabiliyyətinə malik olan bir insandır. Əlbəttə ki, yenilik edən sahibkar və kiçik biznes sahibi olan şəxsləri bir-birində fərqləndirmək lazımdır. Sahibkarlar daim yenilik etməyi bacarmalı və məhsulları bazara çıxarmaq üçün yollar tapmalıdırlar. Buna dünyanın bütün ölkələri üzrə misallar və nümunələr göstərmək mümkündür. İnnovasiyalar